# "Yad et məni, Şaiqanə yad et..."



Oktyabrın 20-də AYB-nin Natəvan klubunda görkəmli ədəbiyyatşünas alim, tənqidçi, AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi Kamal Talıbzadənin xatirəsinə həsr edilmiş tədbir keçirildi.

Yazıçılar Birliyinin katibi Elçin Hüseynbəyli tədbiri açaraq müqtədir tənqidçi K.Talızadənin çoxşaxəli yaradıcılığından, bənzərsiz şəxsiyyətindən ətraflı bəhs etdi. Qeyd etdi ki, Kamal müəllim mənim özümün və yaşıdlarımın lap uşaqlıq, gənclik illərimizdən sevə-sevə mütaliə etdiyimiz görkəmli yazıçı Abdulla Şaiqin evində böyüyüb boya-başa çatmışdı. O, öz yazıçı-pedaqoq, şair atasına layiq bir şəxsiyyət, möbətər söz sahibi idi.

Xalq yazıçısı, AYB-nin sədri Anar da görkəmli alimin ömür yolu və fəaliyyətilə bağlı səmimi ürək sözlərini dilə gətirdi: "Kamal Talıbzadə 60-cı illər nəslinin çox yaxşı tanıdığı böyük alim, ədəbiyyat tarixçisi idi. O, həm də müasir ədəbi tənqidi sistemli şəkildə izləyən bir tənqidçi kimi tanınırdı. Kamal Talıbzadənin Azərbaycan ədəbi tənqidinə həsr olunmuş kitabı misilsiz bir araşdırma örnəyidir. 20-ci əsrin əvvəllərində yazıb-yaratmış sənətkarların yaradıcılıq məziyyətləri barədə onun kitabından çox şey öyrənmişik. Ötən əsrin əvvəllərində ədəbi tənqidimizin istiqamət meylləri Kamal müəllim tərəfindən yüksək peşəkarlıqla izlənilib və dəyər verilib".

"Azərbaycan" jurnalının baş redaktoru İntiqam Qasımzadə lap gənclik illərindən yaxşı tanıdığı K.Talıbzadə ilə bağlı xatirələrini dilə gətirdi: "Mən Kamal müəllimin aspirantı idim. Etiraf edim ki, o böyük şəxsiyyətin ruhu önündə həmişə özümü borclu və xəcalətli hiss etmişəm. Çünki mən Kamal müəllimin çoxsaylı aspirantları arasında yeganə insanam ki, elmi işimi müdafiə etmədim... Kamal müəllim məni həm də Səməd Vurğunun ailəsi baxımından, Vaqif Səmədoğlunun dostu kimi tanıyırdı. Onunla olan görüşlərdə bir yerdə olurduq və mən o xoş anları heç vaxt unutmadım".

Ustad tənqidçi, filologiya elmləri doktoru Vaqif Yusifli də Azərbaycan ədəbi tənqidinin formalaşmasında müstəsna xidmətləri olan Kamal Talıbzadə haqqında unudulmaz xatirələrini bölüşdü. Alimin böyük şəxsiyyəti, yaradıcılıq imkanlarının müstəsna yeri barədə fikirlərini səsləndirdi.

Professorlar Himalay Qasımlı, Asif Rüstəmli, ədəbiyyatşünas alimlərdən Təranə Turan Rəhimli, Mübariz Süleymanlı, Nəzakət Qafqazlı, Gülarə Vəzirova da unudulmaz K.Talıbzadənin unikal xarakteri, iş prosesi, şəxsi keyfiyyətləri ilə bağlı fikirlərini səsləndirdilər. Vurğulandı ki, elmi işindəki müvəfəqiyyətlərinə görə, xüsusilə, milli tənqidi fikrin tarixi mənzərəsini əks etdirən "Azərbaycan ədəbi tənqidinin tarixi" adlı əsərinə görə 1986-cı ildə ona Azərbaycan SSR Dövlət mükafatı təqdim edilmişdir. 1985-ci illərdə "Bilik Cəmiyyəti", mükafatına layiq görülmüş, 1993-cü ildə Azərbaycan Elmlər Akademiyası alimi fəxri fərmanlarla təltif edib, onun nəşr olunan əsərləri beş dəfə mükafatlandırılıb. Kamal Talıbzadə 1970-ci ildə "Fədakar əməyə görə", 1984-cü ildə SSRİ-nin, 1987-ci ildə Azərbaycanın "Əmək veteranı" medalları ilə təltif edilib, "Qabaqcıl maarif xadimi" fəxri adlarını alıb. Azərbaycan Jurnalistlər İttifaqı isə 1998-ci ildə tədqiqatçıya "Qızıl Qələm" mükafatını və "Kamaliyyə" diplomunu təqdim edib.

Sonda Kamal Talıbzadənin qızı Ülkər Talıbzadə atasının xatirəsini əziz tutanlara, tədbirin təşkilatçılarına, Xalq yazıçısı Anara dərin təşəkkürünü bildirdi, atasıyla bağlı xatirələrini bölüşdü.

Tədbir boyu sanki böyük tənqidçinin ruhu öz məmnunluğunu uşaq ədəbiyyatımızın banilərindən olan, atası Abdulla Şaiqin sözlərilə ifadə edirdi: "Yad et, məni, Şaiqanə yad et!".

*Sərvaz HÜSEYNOĞLU*